# Ukrayna böhranı kontekstində Avropanın yeni yüksələn gücü Polşa

**Giriş**

Ukrayna böhranı Avropanın təhlükəsizlik arxitekturasına ciddi təsir göstərmiş və regional güc balansında mühüm dəyişikliklərə səbəb olmuşdur. Ukrayna, Avropa İttifaqının (Aİ) şərq qonşusu kimi Avro-Atlantik inteqrasiya istiqamətində siyasət izləməyə çalışmış və bu siyasətinə görə Rusiya Federasiyasının sərt reaksiyası ilə qarşılaşmışdır. Nəticə etibarilə, Rusiya tərəfindən hərbi müdaxiləyə məruz qalaraq bu prosesin birbaşa təsirini ən çox hiss edən dövlətlərdən biri olmuşdur. Baxmayaraq ki, Avropanın bütün dövlətləri bu münaqişədən müxtəlif səviyyələrdə təsirlənmişdir, Ukrayna ilə birbaşa quru sərhədinə malik ölkələr arasında Polşa xüsusilə ön plana çıxır.

Polşa, həm iqtisadi, həm siyasi, həm də humanitar baxımdan bu münaqişənin təsirlərini ən çox hiss edən dövlətlərdən biri olmuşdur. Bunun əsas səbəbləri arasında Polşanın coğrafi mövqeyi, regional təhlükəsizlik siyasəti və Avropa təhlükəsizlik sistemindəki rolu yer alır. Polşa, Avropa İttifaqına üzv dövlətlər arasında hərbi sahədə ən böyük ambisiyalara malik ölkələrdən biri kimi çıxış edir. Xüsusilə hərbi sahədə iddialı bir siyasət yürüdən Polşa, regionda Rusiya təhlükəsinə qarşı önləyici güc rolunu oynamağa çalışır. Halbuki, Almaniya Avropa İttifaqının əsas lider dövlətlərindən biri olsa da, onun hərbi potensialının güclənməsi müxtəlif səbəblərdən olduqca ləng gedir. Buna qarşılıq olaraq, Polşa öz müdafiə strategiyasını daha da gücləndirmək və Şərqi Avropada əsas təhlükəsizlik dayağına çevrilmək istiqamətində aktiv siyasət yürüdür. Beləliklə, Polşanın bu siyasəti gələcəkdə Avropanın təhlükəsizlik balansına əhəmiyyətli təsir göstərə bilər. Eyni zamanda, bu proses Almaniya-Polşa münasibətlərinə və ümumilikdə Avropa İttifaqının daxili dinamikasına təsir edərək, bölgədə yeni təhlükəsizlik konfiqurasiyalarının formalaşmasına gətirib çıxara bilər. Bu baxımdan Polşanın artan ambissiyalarını və bu istiqamətdə atdığı addımları nəzərdən keçirmək vacibdir.

**Polşanın Ukrayna müharibəsində rolu və dəstəyi**

2022-ci ildə başlayan Ukrayna müharibəsindən etibarən Polşa Ukraynanın əsas dəstəkçilərindən birinə çevrilmişdir. Polşa, həm humanitar, həm hərbi, həm də logistik baxımdan Ukraynaya genişmiqyaslı yardım göstərən dövlətlər sırasında lider mövqedə qərarlaşmışdır. Müharibənin gedişatında Polşa təxminən 7.57 milyon Ukraynalı qaçqını qəbul etmiş və bu baxımdan Ukraynalı qaçqınların əsas məskunlaşdığı ölkə olmuşdur.

Polşa ilə Ukrayna arasındakı tarixi və mədəni yaxınlıq, coğrafi qonşuluq və dil oxşarlığı Ukraynalıların Polşaya daha asan adaptasiya olmasına şərait yaratmışdır. Digər Avropa ölkələri ilə müqayisədə Polşada məskunlaşan Ukraynalılar daha sürətlə inteqrasiya olmuş və əmək bazarına daxil ola bilmişlər. Məsələn, Macarıstan da Ukrayna müharibəsindən sonra müəyyən sayda Ukrayna vətəndaşını qəbul etsə də, dil maneələri və yerli inteqrasiya problemləri bu ölkədə ukraynalılar üçün adaptasiya çətinlikləri yaratmışdır.

Bundan əlavə, Polşa Ukraynaya Qərb dəstəyinin çatdırılmasında əsas logistik mərkəz və tranzit ölkə rolunu oynamışdır. Xüsusilə, Polşanın şərqində yerləşən Rzeşov hərbi bazası ABŞ və digər Qərb ölkələrindən Ukraynaya göndərilən yardımların paylanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bu baza vasitəsilə Ukraynaya hərbi texnika, sursat və humanitar yardımların operativ çatdırılması mümkün olmuşdur. Eyni zamanda, Polşa Ukraynanın dünya ilə əsas kommunikasiya xətti rolunu oynayaraq, Ukrayna rəhbərliyinin və vətəndaşlarının dünya ilə əlaqəsini təmin etmişdir.

Polşa Ukraynaya göstərdiyi iqtisadi və hərbi yardımlarla da ön sıralarda yer almışdır. Ölkə öz ÜDM-nin 4.91%-ni Ukraynaya yardım şəklində ayırmış və bu göstərici ilə dünyada birinci yerə yüksəlmişdir. Polşa prezidenti tərəfindən verilən məlumata əsasən, ölkə ümumilikdə 3.23 milyard avro və ya 14 milyard avro dəyərində hərbi yardım, eyni zamanda 15 milyard avroya yaxın humanitar dəstək təqdim etmişdir.

Beləliklə, Polşanın Ukrayna müharibəsindəki rolu təkcə humanitar və hərbi yardımlarla məhdudlaşmır, həm də regional təhlükəsizlik və geosiyasi tarazlığın qorunmasında strateji əhəmiyyət daşıyır. Polşa, Avropa İttifaqı və NATO daxilində Ukraynaya dəstəyin davamlı olmasını təmin edən aparıcı ölkələrdən biri kimi çıxış etməkdədir.

**Ukrayna müharibəsindən sonra Polşanın yeni ordu quruculuğu**

3.1 Polşanın yeni ordu siyasəti

Ukrayna müharibəsindən sonra Polşa, Şərqi Avropada hərbi gücünü sürətlə artıran və NATO daxilində ən sürətli hərbi modernizasiya proqramlarından birini həyata keçirən dövlətlərdən birinə çevrilmişdir. Xüsusilə Rusiya tərəfindən artan təhlükələr fonunda Polşa hökuməti milli müdafiə strategiyasını gücləndirmək və Avropanın əsas quru gücünə çevrilmək məqsədilə genişmiqyaslı hərbi islahatlar həyata keçirməkdədir.

Hazırda Polşa ordusunun quru qoşunlarının şəxsi heyətinin sayı 216 min nəfərə çatmışdır. Lakin Polşa hökumətinin yeni hərbi strategiyasına əsasən bu rəqəmin 300 min nəfərə yüksəldilməsi planlaşdırılır ki, bu da Polşanı Avropanın ən böyük quru ordusuna sahib dövlətə çevirə bilər. Polşa seyminin 2022-ci ildə qəbul etdiyi  Vətən Müdafiəsi Aktına(Homeland Defence Act,HDA)əsasən  şəxsi heyətin 300 min nəfərə çatdırılması və müdafiə xərclərinin ÜDM-ün 3%-dən çox müəyyən edilməsi qərarı alınmışdır.

Bu genişlənmə və modernizasiya siyasəti Polşanın təkcə NATO daxilində deyil, ümumilikdə Avropanın təhlükəsizlik arxitekturasında əsas dayaq nöqtələrindən birinə çevrilmək istəyini nümayiş etdirir.

Polşa müdafiə xərclərini əhəmiyyətli dərəcədə artıraraq ÜDM-nin 3.64%-ni hərbi büdcəyə ayırmışdır ki, bu da NATO üzvü olan bir çox Avropa ölkələrinin göstəricilərindən daha yüksəkdir. 2023-cü ildə Polşa hərbi xərcləri 23.3 milyard dollar (96 milyard Polşa zlotisi)

təşkil etmişdir. Hökumət 2030-cu ilə qədər bu göstəricini 30 milyard dollara çatdırmağı hədəfləyir ki, bu da Polşanın uzunmüddətli hərbi strategiyasının və yüksək səviyyəli ambisiyalarının göstəricisidir.

Polşa ordusunun maliyyələşdirilməsi təkcə Müdafiə Nazirliyi xətti ilə həyata keçirilməklə məhdudlaşmır. Hərbi xərclərin səmərəliliyini artırmaq və dövlətin müdafiə potensialına dəstək vermək məqsədilə Polşa 1924-cü ildə yaradılmış Silahlı Qüvvələrinə Dəstək Fondu (BGK – Bank Gospodarstwa Krajowego) vasitəsilə də əlavə maliyyə resursları ayırır. Bu fond vasitəsilə həyata keçirilən maliyyələşdirmə Polşa ordusunun sürətli modernizasiyasını və hərbi potensialının artırılmasını təmin edir.

Ümumilikdə, Polşanın yeni hərbi quruculuq strategiyası ölkənin regional təhlükəsizlikdə oynadığı rolu gücləndirməklə yanaşı, NATO daxilində də strateji əhəmiyyətini artırır. Rusiya ilə potensial qarşıdurma riskləri fonunda Polşanın bu cür hərbi modernizasiya siyasəti, Avropanın təhlükəsizlik arxitekturasında mühüm dəyişikliklərə yol aça bilər.

### 3.2. **Polşa Silahlı Qüvvələrində ərazi müdafiə qüvvələrinin rolu**

Son illərdə Polşa Silahlı Qüvvələri öz hərbi potensialını əhəmiyyətli dərəcədə artırmaqda davam edir.  Ordu tərkibində ərazi müdafiə qüvvələri (TDF-Territorial Defence Forces) xüsusi yer tutur. 2017-ci ildə yaradılan bu qrupun gücləndirilməsi Polşanın yeni hərbi quruculuğunda xüsusi əhəmiyyət daşıyır. Son məlumatlara görə, Polşa ordusuna 14 minə yaxın peşəkar hərbçi qoşulmuş və hazırda ordu 167 mindən çox hərbi personal, o cümlədən 36 min Ərazi Müdafiə Qüvvələri (TDF) əsgərindən ibarət olmuşdur.

TDF Polşa ordusunda yaradılan xüsusi müdafiə qruplarından biri kimi çıxış edir və ölkənin təhlükəsizlik strategiyasında mühüm yer tutur. Bu qüvvələrin formalaşdırılması uğurlu sosial və təşviqat kampaniyalarının, müasir və sadələşdirilmiş işə qəbul sisteminin, həmçinin

çevik hərbi xidmət modelinin tətbiqinin nəticəsidir. Bu kontekstdə, yeni qanun qüvvəyə mindikdən sonra 25 min nəfər könüllü hərbi xidmət keçmiş, onlardan 9 minə yaxını isə peşəkar hərbi xidmətə cəlb olunmuşdur.

Polşa hökumətinin uzunmüddətli hərbi strategiyasına əsasən, Silahlı Qüvvələrin şəxsi heyətinin sayının 300 min nəfərə çatdırılması nəzərdə tutulur ki, bunlardan 50 mininin TDF əsgərlərindən ibarət olması planlaşdırılır. TDF daxilində xüsusi peşəkar elit hərbi birləşmələrin formalaşdırılması nəzərdə tutulur ki, bu da Polşa ordusunun müasir döyüş və təhlükəsizlik tələblərinə daha effektiv cavab verməsinə imkan yaradır.

Bu strategiya Polşanın Avropa və NATO çərçivəsindəki hərbi mövqeyini daha da gücləndirərək, onu Şərqi Avropada əsas müdafiə gücünə çevirmək potensialına malikdir. Bu dəyişikliklər, xüsusilə Rusiya ilə artan gərginlik fonunda, Polşanın regionda strateji rolunu daha da artırmaqla yanaşı, Avropanın təhlükəsizlik arxitekturasına da əhəmiyyətli təsir göstərə bilər.

### 3.3. Polşanın hərbi arsenalının transformasiyası

Polşa uzun illər NATO üzvü olsa da, onun hərbi arsenalı tamamilə NATO standartlarına uyğun inteqrasiya olunmamışdı. Ölkə rəhbərliyi arsenalın modernizasiyası üçün müxtəlif planlar hazırlasa da, bu proses nisbətən ləng gedirdi. Lakin 2022-ci ildə başlayan Ukrayna müharibəsi bu transformasiya prosesini sürətləndirdi və Polşa hökuməti qısa müddətdə böyük həcmli hərbi modernizasiya proqramlarını həyata keçirməyə başladı.

Bu çərçivədə, Polşa Sovet istehsalı olan köhnəlmiş qırıcı təyyarələrinin böyük bir qismini Ukraynaya təhvil verərək, əvəzində ABŞ istehsalı olan və NATO-nun müasir döyüş doktrinasına uyğun **F-35 qırıcılarını** əldə etməyi planlaşdırır. Bu addım Polşanın hava qüvvələrinin müasir texnologiyalarla yenilənməsinə və onun NATO çərçivəsində daha güclü

bir aktora çevrilməsinə xidmət edir.

Bundan əlavə, Polşa öz arsenalının modernizasiyası çərçivəsində aşağıdakı yeni texnologiyaları və silah sistemlərini əldə edir:

**HIMARS** raket-artilleriya sistemləri (ABŞ)
**Abrams tankları** (ABŞ)
**Patriot havadan müdafiə sistemləri** (ABŞ)
**Black Hawk helikopterləri** (ABŞ)
**K9 haubitsaları** (Cənubi Koreya)
**K2 tankları** (Cənubi Koreya)
**Reaper Pilotsuz Uçuş Aparatları (PUA)** (ABŞ)
**Bayraktar Pilotsuz Uçuş Aparatları (PUA)** (Türkiyə)
Bu silah sistemlərinin bir hissəsi artıq Polşaya təhvil verilmiş və istifadəyə başlanılmışdır. Müasir döyüş texnologiyalarının bu cür sürətli şəkildə inteqrasiyası Polşanın hərbi gücünü əhəmiyyətli dərəcədə artıracaq və onu Avropanın ən güclü quru qoşunlarına malik ölkələrindən birinə çevirəcək.

Polşanın hərbi modernizasiya planı yalnız texniki təchizatın artırılması ilə məhdudlaşmır. 300 min nəfərlik ordu və 50 min nəfərlik **Ərazi Müdafiə Qüvvələri (TDF)** ilə birlikdə, ölkə Avropanın əsas hərbi güclərindən birinə çevrilməkdədir. Bu hərbi transformasiya Polşanın təkcə NATO daxilində deyil, bütövlükdə Avropanın təhlükəsizlik sistemindəki rolunu yenidən müəyyən edir və ölkəni regionda Rusiya təhdidinə qarşı öncül müdafiə qüvvəsinə çevirir.

**Polşanın artan ambisiyalarına müttəfiqlərin baxışı**
Polşanın yüksələn hərbi gücü və regional ambisiyaları beynəlxalq müttəfiqlər arasında fərqli reaksiyalar doğurur. Bəzi ölkələr üçün bu, Şərqi Avropada təhlükəsizliyin möhkəmlənməsi

və NATO-nun müdafiə qabiliyyətinin güclənməsi baxımından müsbət qiymətləndirilsə də, digərləri üçün müəyyən narahatlıqlar yaradır.

### 4.1 Almaniya və Polşa arasındakı ziddiyyətlər

Polşanın Aİ və NATO üzvlüyünə baxmayaraq, Almaniya ilə münasibətləri həmişə mürəkkəb olub. Polşa siyasi elitası və ictimaiyyəti Almaniyaya qarşı dərin skeptisizmlə yanaşır. Bunun əsas səbəblərindən biri, ABŞ-ın Avropada hərbi mövcudluğunu tədricən azaltması fonunda Almaniyanın yeni lider kimi güclənməsi ehtimalıdır.

Bundan əlavə, II Dünya müharibəsindən sonra Almaniya ordusunun genişlənməsinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması, eləcə də Almaniyada ifrat sağın yüksəlişi Polşa-Almaniya münasibətlərində yeni ziddiyyətlər yarada bilər. Polşa hökuməti xüsusilə Almaniyanın Avropanın təhlükəsizlik arxitekturasında dominant rol oynamaq cəhdlərinə qarşı ehtiyatla yanaşır və bu prosesin öz regional ambisiyalarına maneə törədə biləcəyindən narahatdır.

### 4.2 ABŞ və Böyük Britaniyanın strateji maraqları

ABŞ və Böyük Britaniya üçün Polşanın hərbi gücünü artırması strateji baxımdan sərfəlidir. Güclü Polşa, bir tərəfdən, Rusiyanın Qərbə doğru genişlənməsinin qarşısını almağa kömək edir, digər tərəfdən isə Fransa və Almaniyanın Şərqi Avropada təsirini balanslaşdıran bir faktor rolunu oynayır.

Xüsusilə ABŞ üçün Polşanın artan hərbi xərcləri və NATO standartlarına inteqrasiyası Tramp administrasiyasının siyasəti ilə tam uyğun gəlir. Trampın prezidentliyi dövründə Polşaya xüsusi diqqət yetirilmiş, ölkədəki ABŞ hərbi kontingentinin sayı 1000 nəfər artırılmış və Almaniyada yerləşən Amerika nüvə başlıqlarının Polşaya köçürülməsi məsələsi

müzakirəyə çıxarılmışdı. Bu gün Polşada yerləşən ABŞ hərbi bazasının "Fort Tramp" adlandırılması da bu siyasətin göstəricisidir.

Böyük Britaniya üçün də quru qoşunlarının gücləndirilməsi müxtəlif regionlarda strateji maraqlarına xidmət edir. Bu kontekstdə, Britaniya Yaxın Şərqdə Türkiyə, Qafqazda Azərbaycan, Orta Asiyada Özbəkistan və Şərqi Avropada Polşa və Ukrayna kimi hərbi baxımdan güclü tərəfdaşlarla əməkdaşlıq etməyə üstünlük verir.

### 4.3. Fransa-Polşa münasibətləri

Fransa üçün Polşa, bir tərəfdən, potensial hərbi rəqibdir, çünki Polşanın güclənməsi Avropada hərbi qüvvələr balansını dəyişdirə bilər. Digər tərəfdən isə, Fransanın Avropa təhlükəsizlik siyasətində mühüm yer tutan "Avropa ordusu" ideyasında Polşa mühüm hərbi tərəfdaş rolunu oynaya bilər. Xüsusilə, Fransa Avropa Birliyinin lideri kimi anti-Rusiya blokunu gücləndirmək niyyətindədirsə, Polşanın bu blokda öncül rol oynaması mümkündür.

### 4.4. Polşanın nüvə çəkindirmə gücü və geosiyasi məhdudiyyətləri

Polşanın hərbi güc baxımından ən zəif nöqtəsi onun nüvə silahına sahib olmamasıdır. Fransa öz nüvə arsenalını NATO-nun **Nüvə Əməliyyat Planı (NAP – Nuclear Action Plan)** çərçivəsində paylaşmır. Bu baxımdan, ABŞ-ın nüvə başlıqlarını Polşada yerləşdirməsi Polşanın çəkindirmə qabiliyyətini artıra və onu Avropanın əsas strateji güclərindən birinə çevirə bilər.

### Nəticə

Bütün bu faktorlar nəzərə alındıqda, Polşanın hərbi ambisiyalarının artması regionda ciddi geosiyasi dəyişikliklərə səbəb ola bilər. Polşanın hərbi gücünün artması və onun Şərqi Avropada geosiyasi rolunun genişlənməsi regional və qlobal təhlükəsizlik arxitekturasına

mühüm təsir göstərir. Polşa yalnız NATO və ABŞ-ın dəstəyi ilə deyil, eyni zamanda öz milli hərbi strategiyasını gücləndirməklə də Avropada əsas oyunçulardan birinə çevrilməkdədir. Bununla belə, ölkənin hərbi modernizasiyası və silah arsenalının inkişafı kifayət qədər sürətli getsə də, Polşanın real döyüş təcrübəsinin olmaması onun hərbi siyasətində potensial zəif cəhətlərdən biri kimi qalır.

Bununla yanaşı, Polşa üçün əsas strateji çağırışlardan biri onun NATO və ABŞ-dan asılılığıdır. 2023-cü ildə Rusiyadan atılan raketin Polşa ərazisinə düşməsi və ölkənin öz reaksiyasını ABŞ-ın yekun rəyinə uyğunlaşdırması, Polşanın hələ də müstəqil hərbi qərarvermə imkanlarının məhdud olduğunu göstərir. Bununla belə, Polşanın artan hərbi potensialı və modernləşən silahlı qüvvələri onun Avropanın gələcək təhlükəsizlik arxitekturasında daha əhəmiyyətli rol oynamasına və regional güc balansında əsas aktorlardan birinə çevrilməsinə şərait yaradır.

Bu tendensiya, xüsusilə Avropa daxilində hərbi güc balansının yenidən formalaşmasına səbəb ola bilər və Fransa, Almaniya kimi dövlətlərin Polşanı daha ciddi rəqib və tərəfdaş kimi qəbul etməsinə gətirib çıxara bilər. Polşanın hərbi güclənməsi təkcə Şərqi Avropa üçün deyil, ümumilikdə NATO və Avropa İttifaqı üçün də yeni strateji çağırışlar yaradır.